*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 335-340*

https://doi.org/10.62837/2025.1.335

**Prof. MƏMMƏDOVA ZEMFIRA ŞAHNƏZƏR Q.**
**zmemmedova@amu.edu.az**
**Müəllim SƏFIXANOVA AFƏT Hacıxan q.**
**Azərbaycan Tibb Universiteti**
**asefixanova@amu.edu.az**

# İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ MÜASİR METODLARDAN İSTİFADƏ

**X Ü L A S Ə**

**Aşar sözlər:** ***təlimdə interaktivlik, müasir təlim prosesi, təlim texnologiyası.***

Məqalədə müvafiq ingilis dilinin qrammatikasında tədris texnikasının çeşidləri ümumi xarakteristikasının metodları vasitəsilə qeyd olunur. Təlim prosesində hansı metodlardan istifadə edilməsi müəllim tərəfindən qeyd olunur. Dünya təhsil sisteminin sürətli inkişafı ölkəmizin təhsil sisteminə də təsir göstərir. Avropanın təhsil sisteminə inteqrasiya qabaqcıl təcrübələrdən yararlanmış ölkəmizdə təhsil sisteminin yenidən qurulmasına, təhsildə modernləşdirmə işlərinin fəal və interaktiv metodların istifadəsinə keçirilməsi təhsildə əhəmiyyətli dəyişikliklər yaratdı. Ölkəmizdə gələcəkdə inkişafın dayanıqlığında ən önəmli rolu məhz təhsil oynayacaq. Ölkəmizin dünyada önəmli yer tutmasını yalnız təhsilin inkişaf etdirilməsi səviyyəsinin yüksəldilməsi və gələcəyin aparıcı qüvvələri olan tələbələrimizin elmə marağını dərinləşdirməklə və həvəsləndirməklə təmin etmək mümkündür. Təhsilin modernləşdirilməsi cari problemlərin ən vaciblərindən biridir. Təhsildə müasirləşmə ənənələr arenasında sərbəst düşüncə idisə, müasir dövrümüzdə islahatların mövqeyini müəyyən edir. Müəllim təlim prosesində müəllim bələdçisidir. Hər bir tələbənin öz öz maraq və meyli, idealı, həyati istəkləri var ki, təlim məzmunca və formaca bu istəkləri təmin etməlidir. Bu kimi şərtlər məzmunca metod texnologiyalar baxımından müasir təlimin yenilənməsinə tələbat yaradır. Beləliklə, müasir tədris prosesinin qarşısındakı əsas məqsədlərdən biri təlim və tərbiyənin bərabər müstəvidə vəhdət təşkil etməsidir. Müasir təlim kamilləşməsinə, mənəvi cəhətdən inkişafına, vətənpərvər, insansevər, əməyə münasibətdə mütərəqqi ruhlu yetirməsinə təkan verməlidir. Hazırki dövrümüzdə təlim prosesi milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına istiqamətlənməlidir. Fəal təlim tələbələrə bilik verməklə yanaşı, həm də onların əqli, əxlaqi, iradi, mədəni, estetik, hüquqi dəyərlər istiqamətində formalaşdırılır. Zaman keçdikcə təhsil sisteminin dəyişilməsi, müasir tələblərə cavab verməsi, inkişaf etməsi, aktuallaşması məqsədilə qeyd olunmuşdur. Bu da həmçinin yeni-yeni təlim texnologiyasının yaradılması və tətbiq olunmasını zəruriləşdirir.

Təhsilin müasirləşməsi tələbələrin həyatında ən ümdə rol oynayır. İnternet informasiyalarının tədrisdə hakim mövqe tutması, texnologiyaların yüksək həddə inkişaf etdiyi bir dövrdə ölkələrdə humanitar və ictimai-siyasi baxımdan islahatların fəlsəfiləşməsi, bəşəriyyətdəki statusunu əsaslı surətdə dəyişilməsi və artıq həmin sahədəki potensial strateji resursa dönüşmüşdür. Tələbələr özünü idarə eləməyi bacarmalı, xarakterləri inkişaf etməli, sosial əməkdaşlıq etməyi bacarmalı, ünsiyyət bacarıqlarına yiyələnməli, məlumatlar toplamağı bacarmalı, düşünməyi və yaradıcılıqda məsul olmağı bacarmalı və eyni zamanda öyrəndiklərini tətbiq etməyi də bacarmalıdır. Təhsildə müasirləşmə, təlim sistemində internetin yüksək səviyyədə olmasını və tələbələrin intellektual səviyyəsinin artmasına kömək edir. Cəmiyyətimizin inkişafının əsasını təhsilin inkişafı təşkil edir və bunu hər zaman hər işdə göstəririk. Modernləşdirmə cəmiyyət, iqtisadiyyat və ictimai şüur olmaqla üç təməl məfhum üzərində qərarlaşır – (1 səh.6-7). Cəmiyyət eyni zamanda təhsil sisteminin bu cür dəyişikliklərin vacibliyini anlayır və bu istiqamətdə hərəkət edir. Müasirləşmə ilk öncə məktəblərdən başlanmalıdır ki, ali məktəblərdə varislik prinsipi pozulmadan aparılan islahatlar nəticəyə əsaslana bilsin. İnteqrativ metodların tətbiqi üçün mühüm yanaşmalardan istifadə etmək lazımdır. Tələbələr arasında müzakirələr təşkil etmək və onların fikirlərini ifadə etmək bacarığına malik olsunlar. Mövzuya uyğun debatlar təçkil edərək müxtəlif mövqelərin müdafiəsini təmin etmək önəmlidir. Məsələn, ingilis dili dərslərində turist və bələdçi və digər rolların ifa edilməsini təşkil etmək lazımdır.

Qrup metodları və ya işlərini təşkil edərkən tələbələri qruplara bölmək lazımdır. Burada tapşırıqlar üzərində birgə işləmələri təşkil etmək məqsədəuyğun hesab edilir. Yeni metodlar kimi beyin yarışması da əsas yer tutur. Mövzunu təqdim etdikdən sonra tələbələrdən müxtəlif ideyalar irəli sürmələrinə diqqət yetirmək lazımdır. Bu metod yaradıcı fikirlərin formalaşmasına kömək edir. Texnologiyanın inteqrasiyası zamanı intellektual oyunlar, onlayn testlər, interaktiv tətbiqlərdən istifadə edilir. Video və animasiyaləri tədris prosesinə daxil edərək, tələbələrin diqqətini cəlb etmək mümkün ola bilər. İnteraktiv sorğular hazırlayaraq dərsin sonunda tələbələrdən mövzu haqqında ən vacib məlumatları yazmağıtövsiyə edin. İnteraktiv metodlardan tələbələrin yalnız passiv dinləyici olması vacibdeyildir (səh.1. 12-13). Öyrənmə prosesində aktiv iştirakçı olmalarını təmin edirlər. Tədris prosesini müasir metodlarla zənginləşdirmək üçün həm tədris keyfiyyətini, həm də tələbələrin motivasiyasını artırmaq vacib şərtlərdən biridir. Müasir dövrdə ingilis dilinin geniş vüsət alması təsadüfi deyildir. Xarici dillərin tədrisində keyfiyyət ictimai təlabata çevrilmişdir. Xarici dillərin tədrisi bir çox çətinliklərin, problemlərin aradan qaldırılmasını tələb edir. Xarici dili tədris edən müəllim dilin proqram səviyyəsində öyrədilməsi ilə kifayətlənməməli, həm də tələbələrin ümummədəni səviyyəsinin artmasına çalışmalıdır. Onlarda dilə maraq oyatmalıdır. Bütün bunlara nail olmaq

üçün müəllim tədris etdiyi fənni, onun tədrisi metodikasını dərindən bilməli, pedaqoji ustalığa yiyələnməli, öz işinə sədaqətlə yanaşmalıdır.

Müasir dövrdə ingilis dilinin tədrisində yeni texnologiyaların tətbiqi olduqca aktual və vacib bir məsələdir. Bu dilin öyrədilməsi üçün əsas şərtlərdən biri ingilis dilini öyrənənlərindildən kommunikativ məqsədlərlə istifadə etmək qabiliyyətinə yiyələnməlidir. ingilis dilinin tədrisində müasir texnologiyalardan istifadə edilməsi tələbələri bu dilin öyrənilməsinə cəlb etməklə öyrənilən dilə maraq oyatmaqda mühüm rol oynayır. Hazırda universitetlərdə təhsilin komüterləşmə səviyyəsi kifayət qədər yüksək olmasa da, ölkəmizin təhsil müəssisələrində kompüterlərdən istifadə edir (3 səh.3-4). Müəllim demokratikləşmə, inteqrasiya, humanistləşmə, şəxsiyyətin formalaşması, fərdiləşdirmə və şəxsiyyətin inkişafı kimi müasir pedaqoji təfəkkürün əsas prinsiplərini həyata keçirir. İnteraktiv təlim prosesi zamanı tələbələr və müəllimlər arasında mövzuya və dərsin gedişatına müvafiq olaraq təzahür edən yanaşma tərzindən, yəni müxtəlif metodlardan, dialoqdan, şərhdən, oyunlardan, izahdan və s. istifadə olunur. Belə yanaşma tərzi əvvəlcədən planlaşdırılmadan təlim prosesi zamanı işin gedişatına uyğun olaraq ortaya çıxır. Metodlar əksər hallarda sərbəst işi, müstəqil fəaliyyət və prosesi müdaxiləsi ilə meydana çıxır. Bir tərəfdən də interaktiv tələbələrin arasında da təzahür edə bilər. Bir tərəfdən interaktivlik tələbələrin özləri arasında da təzahür edir. Bu prosesdə tələbə - tələbə və müəllim – tələbə münasibətlərinin eynihüquqlu mövqedə olması əsasdır. Müəllimin öyrədən mövqeyində qalaraq məsləhətçi fasililata və ya bələdçi funksiyasını yerinə yetirmək üçün təbiidir. O, tələbələrin araşdırmasına müdaxilə etmədən tədqiqat sualını qoyur, problem yaradır və tələbələri düzgün istiqamətləndirir, onlara nəzarət edir, araşdırma fəaliyyətini yerinə yetirməyə kömək edir. Lakin nəticəni hazır şəkildə onlara əsla vermir. Tapşırıqlar üzərində tələbələr özləri birgə və ya fərdi şəkildə tədqiqatlar aparırlar, müzakirələr edərək işləyirlər.

Təlimdə interaktivlik təlim prosesində yaranan tələbə - tələbə münasibətində təzahür edən öyrənmə əməkdaşlığı, məlumatın mübadiləsi zamanı ünsiyyəti və tələbə - müəllim birliyinə əsaslanır. Təlimdə interaktiv metodlar bu proses zamanı bilik və bacarıqların öyrənilməsi, anlaşılması tələbələrin keyfiyyətlərə, qabiliyyətlərə yiyələnməsini ehtiva edən vaxtlar və ya yanaşmalardır (4 səh. 22-23). Təlim prosesinin tələbə - tədqiqatçı dayanan konstrukturizm nəzəriyyəsinə əsaslanan öyrənən tələbə cism və hadisələrlə münasibətdə olur, əlaqə yaradır və nəticədə onların mahiyyətini anlayır, əlamətlərini qavrayır ortalığa çıxan problemin həllinə aid ola bilər. Təlim prosesində düşündürücü dərslərə xüsusi yer verilməsi tələbələrdə birlik, bacarıq və vərdişlərə yiyələnməni formalaşdırır. İnteraktiv təlim metodları müəllimin təlim prosesinə hazırlıq səviyyəsinin yüksək olmasını tələb edir. Bu səbəbdən, öyrədən hansı üsullardan nə vaxt və necə istifadə etməyi öncədən bilir, dərsin mövzusuna aidköməkçi vasitələri – fakt və hadisələri problemin həllinə istiqamətləndirməyi bacarır, dövrün tələblərinə uyğun elmi yenilikləri, texnikanı,

vacib ictimai-siyasi hadisələrə düzgün mövqedən yanaşır, mütəmadi olaraq biliklərini artırıb özünü inkişaf etdirir. Müasir tədris prosesinin qarşısındakı əsas məqsədlərdən biri təlim və tərbiyənin bərabər müstəvidə vəhdət təşkil etməsidir. Dərs onu öyrənənin əxlaqca kamilləşməsinə, mənəvi cəhətdən inkişafına, vətənpərvər, insanpərvər, əməyə münasibətlərdə mütərəqqi ruhda yetirməsinə təkan verməlidir. Təlim prosesi zamanı tələbələr arasında əlaqə, əməkdaşlıq və qarşılıqlı təsir əsasdır. Təlim prosesində əməkdaşların qarşılıqlı qüvvəsi ilə təlimin nəticəsi əldə edilir. Təlim prosesində əməkdaşların qarşılıqlı qüvvəsi ilə təlimin nəticəsi əldə edilir. Bu da tələbələrə imkan verir ki, tələbələrdə biliyin mənimsənilmə prosesi daha anlaşıqlı olsun, öz fikrini formalaşdırıb düzgün ifadə etmək, mövqeyini əsaslandırmaq, müzakirə etmək və sübuta yetirməyi öyrənsin. Başqalarını dinləyib eşitməyi, fərqli fikirlərə hörmətlə yanaşması konstruktiv münasibətlər yaratmaq, özünün qrupdakı yerini müəyyənləşdirmək, konfliktləri həll etmək, onlara yaradıcı yanaşmaq əsas şərt kimi qeyd olunur (5 səh. 1-3).

Fəal təlim tələbələrə bilik verməklə yanaşı həm də onların əqli, əxlaqi, iradi, mədəni estetik, hüquqi dəyərlər istiqamətində formalaşır. İnteraktiv təlim metodlarından istifadəni aktuallaşdıran tələbələri təhsildə mühüm rol oynayır. Aydındır ki, interaktiv təlimin mahiyyəti tələbələrə yüksək formalı bilik qazanmağa şərait yaradır. Beləliklə, ingilis dilinin qrammatikasının tədris texnikalarının geniş çeşidlərinin xarakteristikası araşdırılmışdır. Tədris prosesini planlaşdırmadan öncə tədrisinə start verəcəyiniz mövzunun nədən ibarət olduğu əsas götürülür. Modernləşmə mərhələsində qabaqcıl təcrübənin və Avropa ölkələrinin təhsil sahəsindəki yeniliklərinin innovasiyaların mənimsənilib tətbiq edilməsi məqsədilə ardıcıl və sistemli pedoqoji tədqiqatlarınaparılması məqsədyönlüdür. Təhsildə bu tədqiqatların tətbiq edilməsinə üstünlük verilir.

## Ə D Ə B İ Y Y A T

1.Seyidzadə N.B. İngilis dili. Bakı, Elm 1998.
2.Musayev O. İngilis dilinin qrammatikası. Bakı 2007;
3.Cəfərova B.C. Bakı 2009, Maarif;
4.Nəzərov A., Mollayev E. Müasir dövrün təhsil problemləri. Bakı, 2011;
5. Ağayev Ə. Təlim prosesi; ənənə və müasirlik.Bakı, 2011;

**проф. Мамедова Земфира**
**пред. Сафиханова Афет**

## ИСПОЛЬЗОВАННЫЕ СОВРЕМЕННЫХ МЕТОДОВ В ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

***Ключевые слова:*** активные методы обучения, современная система образования, интерактивность в обучении, модернизация.

В английском языке модернизация образования одна из важнейших задач современности. Учитель - проводник в современном учебном процессе. У каждого студента есть свои интересы и склонности, идеалы. Модернизация образования - одна из важнейших задач современности. Если модернизация в образовании была свободной мыслью на арене традиций, то направления реформ и ваше время. Есть насущные желания, что обучение должно удовлетворять эти желания по содержанию и форме. Такие условия создают потребность в обновлении современного обучения по содержанию, методам и технологии. Нам нужны педагогические кадры для обновления образования, методы, формы и приемы. В этой статье нашло место обучение новой технологии английского языка в высших учебных заведениях в настоящее время, применение информационно – коммуникационной технологии, методы обучения иностранных языков.

Одной из главных целей современного образовательного процесса является объединение обучения языков. В настоящее время учебный процесс должен быть направлен на сохранение национальных и нравственных ценностей. Активное обучение не только сообщает студентом знания и формируем их в направлении нравственных, культурных, правовых ценностей. В этой статье нашло место обучения новой технологии английского языка в высших учебных заведениях в настоящее время, методы обучения подготовки и техники для достижения полезной цели обучения английского языка.

**Prof. Mammedova Zemfira**
**Lecturer Safikhanova Afet**

## USİNG MODERN METHODS İN TEACHİNG ENGLİSH

**S U M M A R Y**

**Key words***: learning technologist, modernization. Active learning methods research student, interactivity in teaching English.*

Modernization of education in one of the most important current issues.

Modernization, dominance of internet information and socio – political reforms in countries, at time of high technological development has greatly changed. It changed in potential strategic resource in this area of modernization in education, was a free thought in the arena of traditions in are modern time. It was in the directions of reforms that were determined by the Western educational system. The teacher is a guide in the modern learning process.

Every student has their own interests, ideal and vital desires that must be provided by the content, methods and technologies. Teachers who meet the

requirements of modern times are needed to renew education. The methods, forms are techniques used by the teacher in the learning and teaching process include learning strategic. In modern times the lesson should develop students world view and intellectual levels, create favorable conditions for strengthening of students` beliefs. The employment of new techniques and information – communication technologies in higher education all systems the training problems, the new methods and devices of productive ways of teaching the foreign language issues, at present have been mentioned in this article.

With the help of modern technologies the process of forming writing skill intensifies and becomes even more effective. One of the main goals of modern educational process is to write education an --- upbringing of an equal footing. The lesson should stimulate the learners moral perfection. All these necessities are for the creation and application of new learning technologies stimulate.

**Rəyçi:** **A.A.Qadaşova**